# "MÜQƏDDƏS HİSSİN DAŞIYICISI"

**Şair-publisist Əli Vahid Çaylının (Əli Vahid Səttar oğlu Xəlilbəyli) yenicə çapdan çıxmış kitabı belə adlanır. Təbii ki, hər bir şair qələmə aldığı şeiri pıçıldayarkən ilk növbədə öz ürəyinin səsini eşidir. Əgər şeirdə ürək pıçıltısı, ürək döyüntüsü varsa və həmin misralar başqasının da qəlbini ələ alırsa, deməli, şair istəyinə çata bilib.**

Bu mənada Əli Vahid Çaylının yenicə çapdan çıxmış kitabında onun ürək pıçıltıları olan çox şeirləri var. Bunlara nümunə olaraq onun "Düzünü deyək", "Fərqlidir insan", "Mənim", "Eylədi", "Qalacaqdır", "Gəlsin", "Qardaş yeri", "Deyəsən", "Nədən", "Gəl", "Görürsənmi heç", "Məzarım üstə çaldır "Segah"ı" şeir və qəzəllərini misal çəkə bilərik. Bu şeirlərin hər birində şairin ürək döyüntüləri, qəlb pıçıltıları var. Eyni zamanda hiss edirsən ki, şair bu şeirləri qələmə alarkən özünün dünya boyda ürəyini insanların üzünə açmaq istəyir. Çünki o ürəkdə hərarət var, istilik var.

"Düzünü deyək" şeirində aşağıdakı bənd istər-istəməz oxucunun qəlbinə yol tapır:




**Düzünü deyək, dünya həmin dünyadı,**
**Kimsəni öyməyək, düzünü deyək.**
**İnsan başqa, adam başqa əyyamdı,**
**Yaxşıların yaxşı izinə dönək...**

Əlbəttə, bu cür misralar poetik tutumu və lirik gözəlliyi ilə oxucu qəlbinə bir həssaslıq və sevinc gətirir.

Əli Vahid Çaylının iki beyti var:

**Əsl azərbaycanlı əhli hal olur,**
**Şirini şirin, acısı bal olur.**

Kitabda şairin həyat və yaradıcılığı ilə bağlı tanınmış yazıçıların, şairlərin və ictimai-siyasi xadimlərin xatirələri də var. Bu mənada Aqil Abbasın, Söhrab Tahirin, Əbülfət Mədətoğlunun, Əlirza Xələflinin, Qəşəm İlqarın və başqalarının şair barəsində söylədiyi fikirlər öz orijinallığı ilə diqqəti cəlb edir. Həmin xatirələri vərəqləyəndə hiss edirsən ki, Əli Vahid Çaylı arxada qalan 59 illik ömrünü günə verməyib. Yəni bu 59 ildə neçə-neçə şeirlər kitabının müəllifidir. Bir sözlə, şairin öz oxucuları , öz izləyiciləri var.

Bir daha şair-publisist Əli Vahid Çaylıya can sağlığı və yeni yaradıcılıq uğurları arzulayırıq. Deyirik ki, Əli Vahid, həmişə qələmin bax belə iti və şirin olsun. Qələm iti və şirin olanda şair ürəyinin döyüntüsünü oxucusu ilə paylaşa bilir.

**Faiq QİSMƏTOĞLU**